# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ MÜALİCƏVİ MİNERAL SULARIN İSTİFADƏ PERSPEKTİVLİYİ

**Sevda Nəsrullayeva, Rəna Musayeva, Gülər Zeynalova, Ülkər Şabanova**

*Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Bakı*
*ettbi@mail.ru*

Azərbaycan Respublikası coğrafi cəhətdən çox kəskin dəyişkən relyef quruluşuna malikdir. Respublikanın ümumi ərazisinin təxminən yarısı dağlıq, qalanı isə düzənliklərdən ibarətdir. Geoloji quruluşunda xeyli mürəkkəbliyin, süxur tərkibinin müxtəlifliyi və illik yağıntı miqdarının dəyişikliyi respublikamızın ərazisində xüsusi hidrogeoloji şəraitin yaranmasına səbəb olmuşdur. Buna görə də Azərbaycanda dünyada məlum olan bütün mineral su hövzələrinə rast gəlmək olar. Mineral su mənbələrinin 90%-dan çoxu dağlıq rayonlarda yerləşmişdir.

Metomorfik suların içərisində olduqca qiymətli müalicəvi sular vardır. Belə sulara ən çox cavan yaşlı vulkanik rayonlarda təsadüf edilir. Onların həm isti, həm də soyuq bulaqları olur. Bu suların tərkibində çoxlu miqdarda karbon qazı, eləcə də nadir elementlər mövcuddur. Nadir elementlərin ionları sulara müxtəlif geoloji dövrlərdə keçmişdir. Suların metomorfizmə uğramasına səbəb yüksək təzyiq və temperaturdur. Azərbaycan Respublikası ərazisində belə sulara Böyük və Kiçik Qafqaz dağlarında, Naxçıvan MR-də rast gəlinir.

Qarabağ ərazisində çıxan 25-dən çox məlum olan mineral sular geniş spektorlu yüksək təsirə malikdir.

Bunlardan Şuşadakı IV balneoloji qrup, karbonqazlı yarımqrupa aid olan Şirlan (debit 326 $m^3$/sutka ), Turşsu (debit 70 $m^3$/sutka ) – müalicəvi-süfrə suyunu; Kəlbəcərdəki VII balneoloji qrup, karbonqazlı yarımqrupa aid olan Tutqun (debit 600 $m^3$ /sutka ) (Borjomi), Qoturlu (Jeleznovodsk), Mozçay (debit 150 $m^3$ /sutka ), Aşağı İstisu (debit 180 $m^3$/sutka ) (Karlovı Varı) – müalicəvi-süfrə suyunu və Yuxarı İstisu (debit 825 $m^3$/sutka ) – müalicəvi suyunu, VI balneoloji qrup, radonlu sular, karbonqazlı yarımqrupuna aid olan Bağırsaq (debit 12,2 $m^3$/sutka ) (Pyatiqorsk) – müalicəvi suyunu, I balneoloji qrupa aid olan Boyaqlı – süfrə suyunu; Laçındakı VII balneoloji qrup, karbonqazlı yarımqrupa aid olan Minkənd (debit 4300 $m^3$/sutka ) (Malkinsk, Pyatiqorsk) – müalicəvi-süfrə suyunu, V balneoloji qrup, karbonqazlı yarımqrupa aid olan Qarıqaxa – müalicəvi-süfrə suyunu; Zəngilandakı I balneoloji qrupa aid olan Qotursu – süfrə suyunu misal göstərmək olar.

Suların tərkibində çoxlu miqdarda karbon qazının, müxtəlif mikroelementlərin olması, termal xüsusiyyətləri, yüksək radioaktivlik bu suların balneoloji effektliyini daha da artırır və müxtəlif xəstliklərdə – sinir sistemi, mədə-bağırsaq, oynaq-hərəkət aparatı, qaraciyər və öd yolları, uroloji, kinekoloji, maddələr mübadiləsinin pozulması və s. xəstəliklərinin müalicəsində istifadəsi böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda müalicəvi mineral suları əsasən Kəlbəcər və Laçın zonalarında yerləşir. Keçən əsrin 90-cı illərinə qədər Azərbaycan Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun əməkdaşları tərəfindən bu suların fiziki-kimyəvi xüsusiyyətləri öyrənilmiş və balneoloji cəhətdən dəyərləndirilmişdir. Laçın və Kəlbəcər rayonlarında olan 63 bulaqdan öz fiziki-kimyəvi xüsusiyyətlərinə görə İstisu (Kəlbəcər rayonu) və İlıqsu (Laçın rayonu) daha çox əhəmiyyət kəsb edir. Çexiyanın məşhur Karlovı Varı kurortunun analoqu olan

Yuxarı İstisu, Aşağı İstisu, Bağırsaq yataqlarının çox böyük müalicəvi balneoloji təsirə malik mineral suları Kəlbəcərə dünya söhrəti qazandırmışdır.

Qarabağ və Şərqi Zəngəzur ərazilərində hipertermal və nadir tərkibli müalicəvi içməli suların cəmləşməsi nəzərə alınsa, bu ərazilərdə kurortologiyanı, sanatoriya müəssisələrinin, müalicə xidmətlərinin, balneoloji müalicə xanaların və s. yaradılması nəzərə alınmalıdır.

30 ilə yaxın işğal altında olan Qarabağ torpaqlarında tədqiqatların aparılması mümkün olmamışdır. Hal-hazırda Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunda zəngin unikal təbii müalicəvi sərvətlərin müasir səviyyədə bərpa olunması, regionda sanator-kurort mərkəzinin yaradılması üçün məqsədyönlü, elmi-tədqiqat işləri aparılır.